Aqrar Xidmətlər Agentliyi

# Sürünən (Çəhrayı) Kəkrə

## (Acroptilon repens (L.)DC)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Sürünən kəkrə 25-60 sm hündürlükdə kökümsov gövdəli çoxillik bitkidir. Toxumla, kök pöhrələri və kökümsovlarla çoxalır. Gövdəsi düz, tilli, əsasına qədər budaqlıdır. Meyvəsi tərs yumurtaşəkilli, yanlardan yastılanmış, hamar və ya tilli, çılpaq formalı açıq boz rəngdən kəhrəba-sarı rəngədək dəyişən toxumcadan ibarətdir. Toxumların cücərməsi üçün minimal temperatur 8-10$^0$ C, optimal 20-30$^0$ C-dır. Birinci il çiçəkləsə də meyvə əmələ gətirmir. İkinci il iyunavqust aylarında çiçəkləyir və iyul-sentyabr aylarında meyvə əmələ gətirir.Quru torpaqlarda kök sistemi uzun müddət cücərmə qabiliyyətini saxlayır. Lakin su altında çox qaldıqda məhv olur. İstilik və işıq sevəndir.Kəkrə toxumları əsasən taxıl və ot bitkilərinin toxumları ilə, ot və küləşlə, səbətcikləri isə sular vasitəsilə yayılır.

## Mübarizə tədbirləri

- karantini tədbirlərinə ciddi əməl edilməli, toxumların yeni ərazilərə yayılmasının qarşısı alınmalıdır
- aqrotexniki tədbirlər həyata keçirməklə, qida elementlərinin yerüstü orqanlarda toplanmasının və təkrar pöhrələnmənin qarşısı alınmalıdır
- məhsul yığıldıqdan sonra kövşən üzlənməli, şum ərazi üçün optimal müddətdə aparılmalı və növbəli əkin sistemindən düzgün istifadə edilməlidir
- kimyəvi mübarizə məqsədi ilə qlifosat tərkibli sistem təsirli herbisidləridən istifadə edilə bilər;



## Zədəsi